UOT 371

***Sevinc Leffk qızı Axundova***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Slavyan Universitetinin kafedra müdiri*

# MÜƏLLİMİN PEDAQOJİ USTALIĞI PEDAQOGİKA FƏNNİNİN OPTİMALLAŞDIRILMASININ ŞƏRTİ KİMİ

***Севиндж Леффк гызы Ахундова***
*доктор философии по педагогике, доцент*
*заведующая кафедрой Бакинского Славянского Университета*

# ПЕДАГОГИЧЕСКОЕ МАСТЕРСТВО УЧИТЕЛЯ КАК УСЛОВИЕ ОПТИМИЗАЦИИ ПРЕПОДАВАНИЯ КУРСА ПЕДАГОГИКА

***Sevinc Leffk Akhundova***
*doctor of philosophy in pedagogy, associate professor*
*head department of Baku Slavic University*

# PEDAGOGICAL MASTERY AS A CONDITION OF THE OPTIMIZING THE TEACHING OF THE COURSE OF PEDAGOGY

**Xülasə**. Məqalədə ali məktəblərdə pedaqogika fənnin tədrisinin optimallaşdırılmasında müəllimin pedaqoji hazırlığın, pedaqoji ustalığın rolu araşdırmışdır. Burada pedaqoji ustalığın mahiyyəti və onun bir çox pedaqoq və psixoloqlar tərəfindən tədqiq edilməsi məsələləri nəzərdən keçirilmişdir. Ümumilikdə, tədris prosesinin optimallaşdırılması problemi və eyni zamanda pedaqogika kursun optimal tədrisinin səmərəlilik meyarları müəyyən edilmiş və elmi cəhətdən əsaslandırılmışdır. Müəllimin peşə ustalığı təlim-tərbiyə prosesinin məqsəd və vəzifələrinin uğurla həyata keçirilməsini şərtləndirən amil kimi göstərilmişdir.

***Açar sözlər:*** *pedaqoji ustalıq, tədris, optimallaşdırılma, peşəkarlıq, təhsil-tərbiyə, fəaliyyət, ali təhsil müəssisəsi, tələbə qrupu.*

**Резюме.** В статье исследуются вопросы влияния профессиональной подготовки учителя, его педагогического мастерства на оптимизацию преподавания предмета педагогика в высшей школе. В ней рассмотрены вопросы сущности педагогического мастерства, исследованные различными педагогами и психологами. Определены и научно обоснованы критерии эффективности учебно-воспитательного процесса как в целом, так и в процессе преподавания курса педагогики. Акцентировано внимание на роли профессионального мастерства учителя в решении учебно-воспитательных задач.

***Ключевые слова:*** *педагогическое мастерство, оптимизация, преподавание, профессионализм, образовательно-воспитательная деятельность, высшая школа, студенческая группа.*

**Summary.** The article examines the influence of the teacher's professional training, his pedagogical mastery on the optimization of teaching the subject of pedagogy in higher education. It deals with the issues of the essence of pedagogical skill, studied by various teachers and psychologists. The criteria for the effectiveness of optimizing the educational process as a whole and in the process of teaching the course of pedagogy are determined and scientifically justified. Attention is focused on the role of professional skills of teachers in solving educational tasks.

***Key words:*** *pedagogical mastery, optimization, teaching, professionalism, educational activities, higher school, group of students.*

Dövlətlərin tərəqqisi, cəmiyyətlərin inkişafı keyfiyyətli təhsil əsasında reallaşır. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin «Təhsil cəmiyyətin gələcəyidir» tezisi,

demək olar ki, tədqiqatçıların, alimlərin, elm xadimlərinin aparıcı şüarına çevrilərək, onların elmi axtarışların əsas mövzusunu təşkil etmişdir. Üçüncü minilliyə qədəm qoyan bəşəriyyətin əldə edilmiş ixtiralarının əsasında keyfiyyətli təhsil dayanır. Müasir təhsilə diferensasiya və inteqrasiya, humanitarlaşdırma və demokratikləşdirmə kimi tendensiyalar məxsusdur. Bunların arasında təhsil prosesinin optimallaşdırılması tendensiyası xüsusi əhəmiyyətə malikdir.

Təlim-tərbiyə prosesinin optimallaşdırılması ideyası ilk dəfə tanınmış rus pedaqoqu akademik Y.K Babanski tərəfindən irəli sürülmüşdür. Bir sıra rus alimləri İ.T. Oqorodnikov, İ.P. Zankov, M.N. Skatkin, V.A. Slastyonin, Azərbaycan pedaqoqları Y.R. Talıbov, A.N. Abbasov, Ə.X. Paşayev, F.A. Rüstəmov, Ə.Ə. Ağayev və başqa tanınmış alimlər müxtəlif tədris üsul, vasitə və tərzlərin effektivliyini tədqiq edərək, tədrisin optimallaşdırılmasına dair müəyyən paradiqmanı qurmuş olurlar. Çünki təlim-tərbiyə prosesinin prinsip, metod vasitə və formalarını araşdıran tədqiqatçılar həmin komponentlərin hansı şəraitdə, hansı kombinasiyalarda əlaqəsini, istifadə və təsiri konstruksiyalarını izah edərkən tədris prosesinin optimallaşdırılması məsələsinə toxunmuş olurlar.

Təhsil prosesinin optimallaşdırılması tədris olunan fənlərin vasitəsi ilə həyata keçirilir. Ali təhsil müəssisələrində fənlərin tədrisinin optimallaşdırılması müasir təhsil sistemində cərəyan edən proseslərlə səsləşir. Təhsil prosesinin keyfiyyətinin yüksəlməsi bir sıra amillərdən asılı olaraq, tədris edilən fənlərin məzmunun optimallaşdırılması işinin səmərəli təşkil etməsi ilə bağlıdır. Bu işdə birmənalı əsas rol müəllimin üzərindədir. Ali məktəblərdə “Pedaqogika” fənnin tədrisinin optimallaşdırılması müəllimin nəzəri və praktiki hazırlığından, onun səriştəliyi və peşəkarlığından, pedaqoji ustalığından asılıdır. Ümumilikdə, müəllimin fəaliyyəti gənc nəslin təlim-tərbiyə işinin yaradıcı surətdə həyata keçirilməsi, təlim-tərbiyə vəzifələrin müvəffəqiyyətlə həll etmək üçün optimal şəraitin yaradılmasıdır. M.İ. İlyasova görə, “peşəkarlıq müəllimin lazım biliyə, bacarıqlara şagirdlərlə yaradıcı şəkildə işləyə bilmək texnologiyalarına sahib olması, pedaqoji prosesin incəliklərinə dərindən yiyələnməsidir” (1, s. 17-18). Səriştəlilik isə müəllimin pedaqoji prosesi məharətlə, daha əlverişli metodlarla reallaşdıra bilməsidir (1,s. 18). Bəli, təlim-tərbiyə prosesində səriştəlilik müəllimdən dərin bilik və bacarıqlara yiyələnməsini tələb edir. Bu nöqteyi-nəzərdən, peşəkarlıq və səriştəlilik bir biri ilə qarşılıqlı əlaqədədir. Müəllimin pedaqoji dəyərlərə yiyələnməsi, bu dəyərləri qoruması, pedaqoji prosesdə novator pedaqoq kimi fəaliyyət göstərməsi peşəkarlıqla səriştəliyin əlaqəsi və eyni zamanda pedaqoji ustalığın meyarları kimi özünü göstərir (1, s. 18). Ustalıq və peşəkarlıq müəllimin pedaqoji əməyin metodlarını yaxşı bilməsində təzahür edir. Belə müəllim təhsil-tərbiyənin qanunauyğunluqlarını, prinsip və qaydalarını dərindən bilir, diaqnozlaşdırma, proqnozlaşdırma və layihələşdirmə məharətinə malik olur. (3, s. 107).

Müəllimin pedaqoji ustalığın formalaşdırılması problemi həm azərbaycanlı pedaqoqlar, həm xarici pedaqoqlar, alimlər tərəfindən geniş şəkildə tədqiq edilir. Bəzi müəlliflər pedaqoji ustalığın mahiyyətini müəyyən edərkən, ilkin mövqe kimi müəllimin fərdi və peşə xüsusiyyətlərini, keyfiyyətlərini götürürlər. Digər tədqiqatçılar isə pedaqoji ustalığın mahiyyətini müəllimin peşə fəaliyyətinin mükəmməlliyi nöqteyinəzərindən izah edirlər. A.K. Markovaya görə, pedaqoji ustalıq müəllim əməyinin təcrübədə sınanılmış, metodika işləmələrdə və tövsiyələrdə təsvir edilmiş nümunələrin və etalonların səviyyəsində həyata keçirilməsidir (4, s. 51). İ.F. Xarlamov “Pedaqoji ustalıq, yaradıcılıq və novatorluq haqqında” məqaləsində qeyd edir ki, müəllimin pedaqoji ustalığını onun şəxsi xüsusiyyətlərindən yox, pedaqoji fəaliyyətindən açıqlamaq və izah etmək gərəkdir. Onun fikri ilə müəllim bir müddət, peşəkarlığın və pedaqoji ustalığın əsasını təşkil edən pedaqoji bacarıq səviyyəsində çalışır (5, s. 11-15). Digər pedaqoq V. Slastyoninin pedaqoji ustalıq haqqındakı fikirləri prof. M.İ. İlyasovun “Müəllimin peşəkarlığı və pedaqoji səriştəliyin müasir problemləri” adlı monoqrafiyasında bölüşən fikirləri ilə səsləşir. V.A Slastyonina görə, pedaqoji ustalıq müəllimin şəxsi əmək xüsusiyyətlərinin və peşə səriştəliyinin vəhdətidir (7, s. 46). Yuxarıda göstərilən definisiyaların müqayisəsi əsasında, qənaət etmək olar ki, müəllimin pedaqoji ustalığı peşəkar pedaqoji fəaliyyətinin elə yüksək səviyyəsidir ki, burada psixolo-pedaqoji nəzəriyyələrin

praktikada cilalanmış bacarıqların və formalaşmış şəxsi xüsusiyyətlərinin labüd birliyidir.

Peşəkar müəllim tərəfindən təlim-tərbiyə prosesinin optimallaşdırılmasının həyata keçirilməsi, tələbə gəncliyini fərdi sosial və peşəkar müqəddəratını səmərəli artımını və gücləndirilməsini şərtləndirmək və mühüm müsbət nəticələr əldə etmək mümkündür. Qeyd etmək lazımdır ki, ali məktəblərdə təlim-tərbiyə prosesinin optimallaşdırılması ideyasının nəzəri əsaslandırılması o qədər məqbul və əl çatandır ki, öz praktik realizasiyasında qarşılaşdığı çətinliklərə bərabərdir. İlk növbədə, yuxarıda göstərilən kimi, fənlərin tədrisinin optimallaşdırılması müəllim peşəkarlığından, onun pedaqoji ustalığından asılıdır, digər tərəfdən ölkəmizin dinamik inkişafının nəticəsi olan təhsil müəssisələrin maddi-texniki bazasının genişləndirilməsi, informasiya kommunikasiya texnologiyalarının tədris prosesinə inteqrasiya etməsi və tədris prosesinin ayrılmaz hissəsinə çevrilməsi təlim-tərbiyə vəzifələrinin səmərəli şəkildə həlli imkanlarını genişləndirir.

Optimal termin sözü “optimus” mənasında istifadə edilir ən yaxşı deməkdir. Əslində təlim-tərbiyə prosesinin optimallaşdırılması təlim-tərbiyə işinin təşkili üçün konkret şərtlər daxilində qarşıya qoyulmuş məsələlərin həllinin yaxşı variantının seçilməsi kimi başa düşülməlidir. Təlim-tərbiyə prosesinin optimallaşdırılması ideyasının əməli surətdə həyata keçirilməsinin mürəkkəbliyi ilk növbədə ondan ibarətdir ki müəyyən edilən, konkret şərtlər kifayət qədər dəyişkəndir. Burada pedaqoji prosesin dialektikliyi özünü aydın şəkildə göstərmiş olur. Tədris prosesi hər zaman müxtəlif dəyişikliklərə məruz qalır, bu da müəllim üçün qabaqcadan planlaşdırılmış metod, vasitə, formalarını daha da effektiv tərzdə tətbiq etmək üçün müəyyən əngəllər törədir (6, s. 125).

Təlim-tərbiyə prosesini son dərəcədə optimallaşdırmaq üçün ali məktəb müəllimin işləyən tələbə qrupu ilə müəyyən məqamları bilmək və nəzərə almaq lazımdır. Belə məqamlar arasında tələbə qrupunda mənəvi-psixoloji iqlim, qrupun ümumi pozitivlik əmsalı, tələbələr arasında şəxsiyyətlərarası münasibətlərin xeyirxahlıq səviyyəsi, müəllim-tələbə, tələbə-tələbə sistemlərin pozitivləşdirilməsinin dinamikasında özünü göstərən maraq və tələbatlarının nəzərə alınmasıdır. Pedaqogika kursun tədrisinin optimallaşdırılması prosesində müəllimin hər bir dərsə hazırlığının səviyyəsi və ən əsası tələbələrin qarşısında qoyulan tələblərin müəllimin öz peşə potensialına və tələbələrin idrak potensialına uyğun olub-olmaması mühüm amil sayılır. Təcrübə göstərir ki, təlim-tərbiyə prosesinin optimallaşdırılması üzrə yuxarıda sadalanan məqamların ali məktəb müəllimi tərəfindən nəzərə alınmaması onun peşəkarlıq səviyyəsinə zidd olur. Və bunun nəticəsi tələbələrin görülən işlərə marağın azalması, yorğunluq, ətalətin güclənməsi və nəhayət onların inertliyidir. Onu da qeyd etmək lazımdır ki, konkret şərtlərlə konkret qruplarda əldə olunan optimallaşdırılmanın nəticələri digər qrupların dərslərində eyni səmərəlilik səviyyəsinə malik olmayacaq. Pedaqoji işə standartlıq, universallıq yaddır bütün hallar üçün eyni dərəcədə yararlı vasitə metod və ya forma ola bilməz (2, s. 101).

Pedaqogika fənninin optimallaşdırılması ilk növbədə müəllimindən tələbə qrupunda təhsilalanların real təlim-tədris imkanlarını diqqətlə öyrənməsini tələb edir: onların mənəvi intellektual potensialını, tədris materialların qavranılması səviyyəsini və onun funksional mənimsənilmə dərəcəsini. Əgər bu aspekt nəzərə alınmırsa və buna əhəmiyyət verilmir tədris-tərbiyə prosesinin optimallaşdırılmasından söhbət gedə bilməz. Bu vacib meyara riayət edilməməsi sadəcə olaraq tələbələrin həddindən artıq yüklənməsinə, özünütəhsillə məşğul olmamaq və dərslərdə baş verənləri anlamamasına səbəb olacaq. Tələbələrin real təhsil imkanlarının öyrənilməsi bu meyarın yerinə yetirilməsinin yalnız başlanğıc aspektidir. İkinci, heç də az əhəmiyyət kəsb etməyən aspekt müəllimin öz tələbələrinin “yaxın inkişaf sahəsinin” öyrənilməsidir. Təhsil tərbiyə işinin optimal qurulması təhsilalanların fərdi xüsusiyyətlərin nəzərə alınması və onların əsasında tələbə kontingentin yeni inkişaf səviyyələrinin layihələşdirilməsidir.

Keyfiyyətli optimallaşdırılmış təhsilin digər meyarı təlim zamanını artırmadan öyrənənlərə lazımı bilik, bacarıq və vərdişlərin aşılanması və eyni zamanda az vəsait sərf etməklə, səmərəli metodlar, vasitə və formaların tətbiqi ilə məqsədə nail olmaqdır. Bu meyar ali məktəb müəllimlərini həll olunan vəzifə və tapşırıqların səmərəli şəkildə koordinasiya etməsinə yönəl-

dir. Bu işdə müəllimin metodiki ustalığı ön plana çıxır. Beləliklə, təhsil-tərbiyə prosesinin optimallaşdırılmasının bu iki mühüm meyarı müəllimin tədris prosesinin optimal təşkili ideyasını dərk edilməsindən və onun peşə fəaliyyətinin tələbələrin mənəvi-peşəkar şəkildə özünü-reallaşdırılmasına kömək edəcəyini güman etməyə əsas verəcəkdir.

Bir sıra pedaqoji ədəbiyyatların təhlili göstərdi ki, müəllimin metodiki ustalığı tədqiqatçılar tərəfindən aşağıdakı kimi təsvir olunur:

– bilik və təkmil praktik bacarıqların məcmusu;

– müəllimlərin yüksək bilik, bacarıq və vərdişləri və onların tədris prosesində yaradıcı şəkildə istifadəsi;

– vahid sosial – psixoloji təhsil kimi;

– yaradıcılıq kimi;

– didaktik məqsədlərin yerinə yetirilməsi və təlim-tərbiyə vəzifələrinin həlli kimi.

Yuxarıda göstərilən yanaşmaları ümumi bir fikir ətrafında birləşməsini görmək mümkündür. Müəllimin metodiki ustalığı – təhsilverənlərin pedaqoji məqsədlərə nail olmasının yüksək səviyyəli peşə tərzlərinə yiyələnməsidir, təhsilalanların auditoriyasına dəqiq, çevik, şüurlu təsirin göstərilməsidir (8, s. 132). Deməli, müəllimin metodiki ustalığı, yüksək və ardıcıl iş tərzlərinə, mükəmməl səviyyədə hazırlanmış didaktik mexanizmlərə əsaslanır.

Müəllimin metodiki ustalığı onun metodiki mədəniyyətində təzahür olunur. Ustad müəllimin metodiki mədəniyyəti bir çox elementlərdən ibarətdir. İlk sistemyaradıcı element müəllimin pedaqoji prosesin bütün struktur komponentləri haqqında biliklərini ehtiva edir. Obyekt və subyektlər, məqsəd və vəzifələr, priyom və vasitələr, nəticələr və öz müəllimliyinin səviyyəsi haqda biliklərin mövcudluğu bura aiddir. İkinci element bütün fəaliyyət növlərinin əsasını təşkil edən bacarıq və vərdişlər sistemidir. Metodik mədəniyyətin produktivlilyi onun yaradıcı xarakterə malik olmasından asılıdır. O cümlədən, yaradıcılıq metodik mədəniyyətin üçüncü elementidir. Və nəhayət, dördüncü element müəllimin öz peşə fəaliyyətinə emosional münasibət təcrübəsinin formalaşdırılmasıdır. Hər hansı bir bilik, ideya, fəaliyyət insanda inam, emosional münasibət doğurmursa, işin səmərəliliyindən danışmaq gərəksizdir. Sadalanan elementlər müəllimin pedaqoji qabiliyyətlərində əks olunaraq, müəllimin ümumi metodiki mədəniyyətinin göstəricisidir. Ümumilikdə, müəllimin metodiki ustalığı ali müəssisələrdə tədris olunan fənlərin optimallaşdırma metodikasının həyata keçirilməsinin əsas rəhnidir.

Pedaqogika fənnini tədris edən ali məktəb müəllimlərinin hər bir tələbə qrupunda öz pedaqoji fəaliyyətinin qurulması üçün optimal variantın seçilməsi onun pedaqoji təfəkkürünün problemli-axtarış tərzinə əsaslanır. Bu cür düşüncə tərzi pedaqoji prosesdə şablon və stereotiplərdən uzaqlaşmağa, qarşıda duran vəzifələrin optimal həlli yollarını tapmağa imkan yaradır. Eyni zamanda müəllimin peşəkar potensialını maksimum dərəcədə aktivləşdirir, tələbələrin idraki fəaliyyətinin kəskin artımına səbəb olur, müəllim - tələbə arasında sabit əks əlaqələrin yaradılmasına xidmət edir. Müəllimin pedaqoji təfəkkürünün problemli - axtarış üslubu mövcud olan təcrübəni şəxsi yaradıcılıqla zənginləşdirilməsini şərtləndirir. Müasir elmi ədəbiyyatda pedaqoji yaradıcılıq dəyişən şəraitdə pedaqoji vəzifələrin icra etməsi kimi başa düşülür (7, s. 15). M. İlyasova görə pedaqoji səriştəlilik müəllimdən yaradıcı düşüncə, yenilikçilik meylləri tələb edir (1, s. 20). Müəllimin bu xüsusiyyətləri təlim-tərbiyə prosesinin optimallaşdırılması işində önəmlidir. Bunları özündə təcəssüm etdirə bilən müəllim özünü həm pedaqoq kimi təqdim edir və şəxsiyyət kimi reallaşdırır. Müəllimin yaradıcılıq potensialı təhsil-tərbiyə məsələlərin qeyri-standart həll etməsinə, alternativ yanaşmaların formalaşdırılmasına, perspektivlərin proqnozlaşdırılmasında, problemlərin əsaslı şəkildə dərk etməsinə və yeni kontekstdə qavramaq imkanlara geniş yol açır, fənlərin optimal şəkildə tədrisini asanlaşdırır.

Tələbə qrupunda təhsil-tərbiyə fəaliyyətinin optimallaşdırılması prosesi tədris prosesi iştirakçılarının mənəvi-emosional dolğunluq və sevincin artırılması fonunda daimi keçirilməlidir. Öyrənmə prosesi özlüyündə müəyyən kəşflərin əldə olunması ilə səciyyələnir. Kəşflər isə müəyyən emosional halları ilə müşayiət olunur. Peşəkar müəllim məşğələlər zamanı müsbət emosional psixoloji mühitin yaradılmasına çalışmalıdır, təhsil prosesin bütün iştirakçılarının mənəvi-emosional sıçrayışına nail olmalıdır. Bunlar üçün müəllim:

*mövzu ilə əlaqədar maraqlı fakt və informasiyaları əldə etməlidir;

*qarşılıqlı fəaliyyətə əsaslanan üsulları seçməlidir;

*dərsin birinci dəqiqələrindən major tempini seçmək və tempin səngiməməsinə çalışmalıdır;

*təhsilalanların təlim təşəbbüslərini dəstəkləməlidir.

Bir sözlə, "Pedaqogika" fənnin tədrisinin optimallaşdırılması üçün tədris elementlərin axtarışı, müəyyən etməsi və tətbiqi həm müəllimin həm də tələbələrin mənəvi-emosional sıçrayışını hiss etdirməlidir. Deməli, pedaqoji təfəkkürün problemli-axtarış üslubu şəxsiyyətin təşəbbüskarlıq, müstəqillik, tapşırıqların yaradıcı həlli, təhlil, müqayisə etmək kimi və ən başlıcası öz bacarıqlarına, idrak qüvvəsinə güclü inamın möhkəmlənməsinin hərəkətverici qüvvəsidir. Pedaqogika fənninin tədrisinin optimallaşdırılması prosesinin körtəbiyililiyindən uzaq durmaq üçün, sözsüz ki, məqsədyönlülük, sistemlilik, ardıcıllıq, müvafiqlik, humanistləşdirmə, humanitarlaşdırma, deferensiallaşdırma və digər prinsiplərin müəyyən meyarların tələblərinə tabe olması zəruridir.

Düzgün hesablanmış fikir olardı ki, təhsil-tərbiyə prosesinin optimallaşdırılması daimi cərəyan edən, təkmil məqsədlərə əsaslanan novator texnologiyaları cəmləşdirən, dinamik inkişaf edən fəaliyyətdir. Bu fikirdə qırmızı xətlə müəllimin ustad olduğu şərti vurğulanır. Pedaqogika fənnin optimal təşkili müəllimdən aşağıdakı fəaliyyət növlərinin həyata keçirilməsini nəzərdə tutur:

*pedaqogikanın optimal məzmununu müəyyən etməsi;

*təlim vəzifələrin kompleks şəkildə müəyyən etməsi;

*müəllim fəaliyyətinin vəzifələrini, metod, vasitə və formalarını konkretləşdirmək (mövcud şəraiti və imkanları nəzərə almaqla);

*tələbə kontingentinə uyğun (ayrı-ayrı qruplara, cütlərə uyğun) vəzifə, forma, metod və vasitələrin diferensiallaşdırılması;

*dəyişən şəraitə və imkanlara uyğun təlimin gedişinə çevik müdaxilə;

*zaman, və vasitələrin qənaət etməsinə yönəlişlik;

*nəticələrin optimallıq baxımından təhlil edib düzgün qiymətləndirilməsi.

Ali məktəblərdə fənlərin optimallaşdırma metodikasını həyata keçirilməsi müəllimin daimi axtarış xarakterli peşə fəaliyyətini nəzərdə tutur. Tələbə qrupunda təlim-tərbiyə prosesinin optimallaşdırılması zamanı nə müəllimin, nə də tələbələrin gərgin vəziyyətdə qalmayacağı üçün psixoloji komfort atmosferi yaratmaq çox vacibdir. Belə bir müsbət psixoloji ab-havanın yaradılması tələbə və müəllimin sərbəst şəkildə ünsiyyət qurmasına, polemikaların aparılmasına, öz fikrini inamla ifadə etməsinə kömək edəcək ki, bu da şübhəsiz, onların tədris fəaliyyətini stimullaşdıracaqdır. Yüksək səviyyədə qurulmuş pedaqoji əməkdaşlıq təlim - tərbiyə prosesinin məqsəd və vəzifələrin uğurla həyata keçirilməsini şərtləndirəcək, təlimin keyfiyyətini yüksəldəcək.

Müəllimin yüksək peşəkarlığı, onun pedaqoji ustalığı optimizasiya metodikası təcrübəsində olan sabit alqoritmlərdən uzaq durmağın əsas şərtlərindəndir. Optimallaşdırma metodikasının müvəffəqiyyətlə həyata keçirilməsi müəllimin şəxsi keyfiyyətlərinin ahəngdarlığını, metodik ustalığını, pedaqoji əməkdaşlıq ustalığını özündə birləşdirməlidir. Ali təhsil müəssisələrində "Pedaqogika" fənnin optimallaşdırılması məsələlərinin uğurla həll edilməsi müəllimin pedaqoji ustalığından savayı bir çox amillərin nəzərə alınmasından və onların təhlilindən asılıdır. Birmənalı, bütün məsələlərin həlli bir məqalənin ideyası ilə məhdudlaşa bilməz və gələcəkdə daha geniş tədqiq edilməsini tələb edir.

**Problemin aktuallığı.** Müasir təhsil sistemi elmi-texniki tərəqqini dəstəkləyərək, onunla ayaqlaşmalıdır. Respublikamızın təhsil sahəsində gedən islahatlar inkişaf ideyasına tabe olunur. Dəyişikliklər təhsil sisteminin bütün pillələrini və səviyyələrini əhatə edir. Mütərəqqi ideyaların həyata keçirilməsi, təhsil-tərbiyə vəzifələrinin yüksək səviyyədə reallaşdırılması təhsilverənlərdən peşəkarlıq və pedaqoji ustalıq tələb edir. Məqalənin aktuallığı təhsil sistemində müşahidə olunan tendensiyalarla bağlı, təhsil-tərbiyənin optimallaşdırılması problemin peşəkar səviyyədə həll olunmasından ibarətdir.

**Problemin elmi yeniliyi**. Azərbaycanda ali təhsil müəssisələrində "Pedaqogika" fənnin optimal şəkildə tədrisində müəllimin pedaqoji ustalığının rolu araşdırılır.

**Problemin praktik əhəmiyyəti**. Ali təhsil məktəblərdə "Pedaqogika" fənnin peşəkar səviyyədə optimallaşdırılma metodikasının tətbiqinin əsas meyarları, şərtləri və həyata keçirilməsinin fəaliyyət növləri göstərilmişdir.

**Ədəbiyyat:**

1. İlyasov, M.İ. Müəllimin peşəkarlığı və pedaqoji səriştəliyin müasir problemləri: Monoqrafiya / M.İ. İlyasov. -Bakı: Elm və təhsil, -2018.
2. İsmixanov, M. Pedaqogikanın əsasları: Dərs vəsaiti / M. İsmixanov. –Bakı, -2013.
3. Rüstəmov, F.A. Ali məktəb pedaqogikası: Magistratura pilləsi üçün dərslik / F.A. Rüstəmov, T. Dadaşova. –Bakı: Nurlan, -2007.
4. Маркова, А.К. Психология труда учителя: Книга для учителя.- А.К. Маркова. -Москва: -1993. - 192 с.
5. Харламов, И.Ф. О педагогическом мастерстве, творчестве и новаторстве // -Москва: Педагогика, -1992. № 7-8, 11-15 с.
6. Зайцев, В.С. Современные педагогические технологии: Учебное пособие в 2-х кн. –Челябинск: -ЧГПУ- 2012.
7. Сластёнин, В.Ф. Педагогика / В.Ф. Сластёнин. - Москва: Академия --2013. - 491с.
8. Киселёв, А.В. Сущность и содержание методического мастерства преподавателей // Вестник, № 3, -132 с.

**E-mail:** seva_axundova@inbox.ru

**Rəyçilər:** *ped.ü.elm.dok.,prof.* **K.A. Məmmədov**
*ped.ü.fəls.dok., dos.* **K.Ə. Səmədov**

**Redaksiyaya daxil olub:** 24.05.2021